UOT 327
DOI: https://doi.org/10.30546/19063.2026.03.005.2043

# ABŞ VƏ RUSİYANIN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ "YUMŞAQ GÜC"DƏN İSTİFADƏ

**FATİMƏ BƏHRAM QIZI GÜLƏMİRLİ**
*Bakı Slavyan Universiteti,*
*İctimai elmlər kafedrasının doktorantı*
*Bakı, S.Rüstəm küç., 33*
*ADU, Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi*
*https://orcid.org/0000-0002-6722-686X*
*E-mail: fatima.gulamirli@adu.edu.az*

## XÜLASƏ

Dünyanın müxtəlif regionlarında təsir imkanlarına malik olmaq müasir mərhələdə yalnız hərbi üstünlük ilə deyil, qeyri-hərbi vasitələrin tətbiq edilməsi yolu ilə mümkündür. Qloballaşan dünyada mədəniyyətlər, ideyalar, dəyərlər sürətli şəkildə dövlətlərin sərhədlərini aşır və bütün ölkələrə yayılır. Xüsusilə, müasir dünya nizamında söz sahibi olmağa çalışan aktorlar üçün bu amil çox vacibdir. Belə ki, dövlətlərin bir-birilərinin siyasətlərini qəbul etmələri və dəstəkləmələri tətbiq etdiləri "yumşaq güc"ün səviyyəsindən çox asılıdır. Belə vəziyyətdə dünyanın müxtəlif regionlarında təsir dairələri uğrunda rəqabət aparan böyük güclər bu sahənin inkişafına xüsusi diqqət ayırırlar. Hərbi qüvvə tətbiq etmədən, güclə hədələmədən dövlətlərin dəstəyinə nail olmaq üçün ölkənin "yumşaq güc" potensialının inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Cənubi Qafqaz Rusiya və ABŞ-nin regional strategiyasında mühüm yer tutan regiondur. Burada "yumşaq güc" elementlərindən istifadə regional təhlükəsizlik mühitində hərbi vurğunu zəiflədə, qeyri-hərbi yanaşmaları gücləndirə bilər. Rusiya və ABŞ-nin Cənubi Qafqazda fərqli "yumşaq güc" yanaşmaları mövcuddur ki, bu onların regionla təcrübələrinin tarixinə bağlıdır. Məqalədə Rusiyanın və ABŞ-nin Cənubi Qafqazda tətbiq etməyə çalışdıqları "yumşaq güc" siyasətinin əsas parametrləri, inkişaf dinamikası və təsirləri araşdırılır.

**Açar sözlər:** *təsir vasitələri, ümumi mədəni irs, dezinformasiya, mübadilə proqramları.*

## Giriş

Müasir beynəlxalq münasibətlərin əsas göstəricilərindən biri təhlükəsizliyin hərbi ölçüsü ilə yanaşı, "yumşaq güc" elementlərinin də inkişaf etməsidir. Müasir dövrdə böyük geosiyasi rəqabət yalnız hərbi üstünlüklə deyil, dövlətlərin qeyri-hərbi vasitələrlə öz siyasətlərini qəbul etdirmək qabiliyyəti ilə də ölçülür. Bu baxımdan "yumşaq güc" siyasəti və onun elementlərinin inkişafı, tətbiq edilməsi vacib əhəmiyyət kəsb edir. "Yumşaq güc" amerikan politoloq Jozeph Nye tərəfindən işlədilmişdir və dövlətlərin heç bir təzyiqə əl atmadan digərlərinə təsir etmək qabiliyyəti kimi müəyyən edilmişdir. Media, pop mədəniyyətlər, incəsənət, idman, turizm, iqtisadi yardım, təhsil proqramları və digər vasitələrlə ölkənin beynəlxalq miqyasda müsbət imicini möhkəmləndirmək məqsədi daşıyan "yumşaq güc" xarici siyasətin əsas vasitəsidir. "Yumşaq güc"ün əsas əhəmiyyəti qarşı tərəfin könüllü şəkildə əməkdaşlıq etməsinə və bununla da qarşıya qoyulan hədəflərə çatmağa imkan verməsidir [1, s. 88]. 2025-ci il Global Yumşaq Güc İndeksinə əsasən ABŞ, Çin və Böyük Britaniya bu sahədə ən uğurlu siyasət aparan dövlətlərdir [5]. Rusiya "yumşaq güc" göstəricilərinə görə 16-cı yerdədir və bu nəticə Ukrayna müharibəsində Qərb dövlətlərinin kəskin tənqidinə baxmayaraq, yaxşı göstərici hesab olunur.

## Rusiyanın Cənubi Qafqazda "yumşaq güc" siyasəti

Cənubi Qafqazda Rusiyanın "yumşaq güc" mənbəyi nəhəng əmək bazarı, dil yaxınlığı, ümumi mədəniyyət və nəhəng enerji resurslarının mövcudluğuna bağlıdır [3]. Mədəni təsir rus dilinin və rus mədəniyyətinin yayğın olması, müxtəlif mərkəzlərin fəaliyyəti, eyni zamanda dini sahədə rus Ortodoks kilsəsinin fəaliyyəti ilə tənzimlənir. Rusiyanın "yumşaq güc" siyasətinin əsas hədəfləri Avropa institutlarının regiona doğru genişlənməsinin qarşısını almaq və alternativ iqtisadi birliklərin fəaliyyətini möhkəmləndirmək, postsovet məkanında rus dili və mədəniyyətinin qorunub saxlanılmasına nail olmaq, bütövlükdə regionda sabitliyin qarantı kimi Rusiyanın müsbət imicini formalaşdırmaqdır. QHT-lərlə yanaşı, Rusiyanın "yumşaq güc" strategiyasına Gürcüstan daxilində onun anti-Qərb mövqeyini bölüşən müəyyən siyasi hərəkatlara və partiyalara dəstək daxildir [6]. Buna baxmayaraq, Rusiyanın imperialist siyasəti, Cənubi Qafqazda münaqişələrdə neytral olmayan mövqeyi, radikal siyasət aparması onun "yumşaq güc" siyasətini zəiflədən əsas amillərdəndir.

Rusiyanın bütövükdə postsovet məkanında effektiv "yumşaq güc"ünün olmaması, onun qonşu dövlətlərə qarşı neoimperialist münasibəti ilə bağlıdır. Rusiya qonşu dövlətlərə güclü asılılıq nümunələri

yaratmadan cəlbedici inteqrasiya perpektivini təqdim edə bilmir [3]. 2025-ci il avqustun 15-də ABŞ və Rusiya prezidentlərinin Alyaska zirvə görüşünə qatılan xarici işlər naziri Sergey Lavrovun üzərində "CCCP" yazılmış köynək geyinməsi Rusiyanın imperialist iddialarının göstəricisi kimi şərh edilmişdir. Son dövrlərdə Rusiyanın Cənubi Qafqazla iqtisadi əməkdaşlığı dərinləşir ki, bu da könüllü prosesdən daha çox Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyaların nəticəsi kimi təhlil olunur [7].

İqtisadi əlaqələrin inkişafına baxmayaraq, Rusiyanın Cənubi Qafqazda dini təsiri zəifləməkdədir. Ermənistanın 44 günlük müharibə müddətində Rusiyadan gözlədiyi dəstəyi almamasından sonra erməni kilsəsi Azərbaycan və Türkiyə ilə sülh müqaviləsinin imzalanması, diplomatik münasibətlərin qurulmasına qarşı yönəlmiş daha millətçi mövqe nümayiş etdirir. Gürcüstan Ortodoks kilsəsinin yurisdikasiyasının təkcə Gürcüstanda yaşayan deyil, eyni zamanda ölkənin hüdudlarından kənarda yaşayan və başqa bir yerli pravoslav kilsəsinin yurisdiksiyasına tabe olmayan pravoslav gürcüləri də əhatə etməsi ilə bağlı yanaşması nəticəsində Rusiyanın Gürcüstanda dini zəmində nüfuz problemi yaşadığını qeyd etmək olar [4]. Hal-hazırda Gürcüstanı Rusiyanın Cənubi Qafqazda "yumşaq güc"ünün nisbətən uğurlu olduğu ölkə hesab etmək olar. Rusiya 2008-ci ildən sonra zəifləyən nüfuzunu bərpa etmək üçün QHT-lər, onlayn media orqanları və siyasi partiyalar kimi ictimai diplomatiya alətlərindən istifadə etməyə başlamışdır ki, bunun nəticəsi "Gürcü Arzusu"nun hakimiyyətə gəlməsi və Rusiyanın maraqlarını dəstəkləyən siyasət aparmasıdır. Avrasiya İnstitutu, Erekle II Cəmiyyəti və Avrasiya Seçimi kimi təşkilatlar anti-Qərb yanaşmasının formalaşmasında əsas rol oynadılar [7]. Ən məşhur xəbər agentliklərindən biri olan Rusiyanın dövlət xəbər agentliyi Sputnik Gürcüstan Rusiyayönlü, anti-Qərb perspektivini təqdim etməklə ictimai rəyin formalaşmasında mühüm rol oynayıb.

Rusiyada Azərbaycanlıların Milli Konqresinin bağlanması Rusiya tərəfindən atılmış qeyri-adekvat addım oldu. AZAL-ın təyyarəsinin vurulması və sonrasında Rusiya tərəfinin göstərdiyi yanaşma ümumilikdə Rusiyanın xoşməramlı imicini şübhə altına alan əsas hadisələrdən biri oldu. 2025-ci ilin iyununda Yekaterinburq şəhərində rus təhlükəsizlik orqanlarının nümayəndələrinin azərbaycanlıların evlərinə hücum etməsi və iki həmvətənimizin qətlə yetirilməsi vəziyyəti daha da pisləşdirdi [2]. Bu hadisələrdən sonra Bakıda fəaliyyət göstərən Rus evinin bağlanması ilə bağlı qərar verildi. Oxşar proseslər Rusiyanın Cənubi Qafqazda əsas müttəfiqi olan Ermənistanla münasibətlərdə də baş verir. Ermənistanın xarici siyasətində Rusiyadan uzaqlaşaraq Qərblə yaxınlaşmaq xətti tutması Rusiyanın ciddi narahatlığına səbəb olur.

## ABŞ-nin Cənubi Qafqazda "yumşaq güc" siyasəti

ABŞ-nin Cənubi Qafqaz regionunda yumşaq güc siyasətinin əsas alətlərindən əsasları iqtisadi yardımların göstərilməsi, təhsil proqramları vasitəsilə tələbə-müəllim mübadilələrinin aparılması, QHT-lərin fəalliyyəti hesab olunur. Xüsusilə, SSRİ-nin dağılmasından sonra ABŞ postsovet məkanında amerikan dəyərlərinin yayılması, liberal ideyalara əsaslanan dövlət quruculuğunun və bazar iqtisadiyyatının formalaşdırılması üçün dövlət səviyyəsində strategiyaları həyata keçirirdi. 1990-cı illərin əvvəllərindən müxtəlif könüllü təşkilatlar, QHT-lər regionda fəaliyyət göstərməyə başlamışdır. ABŞ-ın qlobal səviyyədə mədəniyyət, musiqi, təhsil imkanlarına olan marağın artması, xüsusilə, gənc nəslin-ümumi sovet kimliyi təcrübəsi olmayan yeni nəslin öz arzularını reallaşdırmaq üçün qərbə meyillənməsinə səbəb olmuşdur. ABŞ Fulbrayt, Flex kimi proqramlar vasitəsilə Cənubi Qafqazdan olan müəllim və tələbələrin mübadiləsini həyata keçirir.

ABŞ-nin təcridçi siyasət aparması, Cənubi Qafqaz dövlətləri ilə münasibətlərinin perspektivlərini insan hüquqları və demokratiyanın inkişaf səviyyəsinə bağlaması onun yumşaq təsirlərini zədələdi. Xüsusilə, Əfqanıstan və İraq müharibələrinin bitməsi, D. Trampın "Birinci Amerika" siyasəti Cənubi Qafqaz ölkələri ilə münasibətlərdə soyuqluq yaratdı. Azərbaycanda ölkənin daxili işlərinə qarışmaq cəhdləri nəticəsində USAİD, Sülh korpusu kimi ABŞ təşkilatların fəaliyyəti dayandırıldı. USAID erməni millətçilərinin siyasətini dəstəkləyir, Qarabağ azad olduqdan sonra Ermənistana köçənlərə iqtisadi yardım göstərir. Halbuki USAID nə azərbaycanlı qaçqınlara, nə də Abxaziya və Samachablodan olan gürcü qaçqınlarına yardım təklif etməmişdir [9]. ABŞ-ın "yumşaq güc"ünün inkişafa meyilləndiyi ölkə Ermənistandır ki, bu da N.Paşinyan hökumətinin Qərbə inteqrasiya və əməkdaşlıq siyasi xətti tutmasının nəticəsidir. ABŞ-nin Cənubi Qafqazda "yumşaq güc"ünə yeni çağırışlardan biri də regionda Çin,Yaponiya, Ərəb ölkələrinin yumşaq təsirlərinin artmasıdır. Qeyd edilən yeni oyunçular region ölkələri ilə əməkdaşlıq üçün insan hüquqları və demokratiyanın inkişafını şərt qoymur, dolayası ilə qarşılıqlı münasibətlərin inkişafına maneə yaratmırlar.

**Nəticə**

ABŞ və Rusiyanın Cənubi Qafqazda "yumşaq güc" siyasətlərini təhlil etdikdə hədəf və vasitələrdə fərqli və oxşar xüsusiyyətlər üzə çıxır. ABŞ daha çox liberal dəyərlərə fokuslanır və Cənubi Qafqazda demokratik ideyaların təbliğ olunmasını hədəfləyir. Rusiyanın regionda "yumşaq güc" siyasətinin əsasında ortaq tarix, kimlik və təhlükəsizliyə vurğu mövcuddur. ABŞ-nin "yumşaq güc" sahəsində təcrübəsi və vasitələri Rusiya ilə müqayisədə daha güclüdür. Eyni zamanda Rusiyanın regiona coğrafi yaxınlığı, tarixi təcrübəsi və rus dilinin geniş istifadə potensialı var. Mədəni sahədə təsirlərə nəzər salsaq, amerikan pop mədəniyyətinin, müsiqisinin, qlobal dil kimi ingilis dilinin təsirinin artmasını görürük. Təhsil proqramlarının fəaliyyətini müqayisə etsək ABŞ və Qərbin üstünlüyü aydın nəzərə çarpır. İqtisadi sahədə ABŞ daha çox müxtəlif proqram vasitəsilə yardımlar etdiyi halda, Rusiya fərqli mövqe nümayiş etdirir. Belə ki, Rusiya Cənubi Qafqazdan gedən miqrantlar üçün iş imkanlarına sahibdir. Oxşar xüsusiyyət kimi hər iki ölkədə diasporaların fəaliyyətini göstərmək olar. Ümumilikdə, hər iki ölkə üçün "yumşaq güc" regionda həyata keçirdikləri siyasətin tamamlayıcısı və genişmiqyaslı geosiyasi rəqabətin əsas tərkib hissəsi kimi xüsusi önəm daşıyır. Bu baxımdan regionda iqtisadi, siyasi-ideoloji üstünlüyün əldə olunması üçün "yumşaq güc" elementlərinin təkmilləşdirilməsi vacibdir.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. Bakı 2022*

*2. No:282/25, Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı Səfirliyinin müvəqqəti işlər vəkilinin Xarici İşlər Nazirliyinə çağırılması barədə mətbuat məlumatı. (2025, June). Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. Retrieved July 7, 2025, from https://www.mfa.gov.az/az/news/no28225*

*3. Ćwiek-Karpowicz, J. Limits to Russian Soft Power in the Post-Soviet Area. German Council on Foreign Relations. 2012. Retrieved September 1, 2025,// from https://dgap.org/en/resarch/publications/russias-failure-soft-power-0*

*4. Goble, P. Moscow Patriarchate Faces Mounting Problems In All Three Countries Of South Caucasus – OpEd. Eurasiareview. 2024, March 1. Retrieved August 10, 2025, from https://www.eurasiareview.com/11032024-moscow-patriarchate-faces-mounting-problems-in-all-three-countries-of-south-caucasus-oped/*

*5. Jagodzinski, K. . Global Soft Power Index 2025: The shifting balance of global Soft Power. Brand Finance. 2025, February 20. Retrieved August 11, 2025, from https://brandfinance.com/insights/global-soft-power-index-2025-the-shifting-balance-of-global-soft-power*

*6. Liparteliani, V. . Russian Soft Power: Shaping Georgia's Political Future? The Review of Democracy. 2024 Retrieved September 1, 2025, from https://revdem.ceu.edu/2024/10/01/georgia-election/*

*7. Roubanis, I. . American Realism in the Caucasus. Caucasus Watch. 2023, November 9. Retrieved August 24, 2025, from https://caucasuswatch.de/en/interviews/american-realism-in-the-caucasus.html*

*8. What Is Soft Power? . Council on Foreign Relations. 2023, May 16. Retrieved August 7, 2025, from https://education.cfr.org/learn/reading/what-soft-power*

*9. Zakhariadze, A. USAID in the South Caucasus – preparation of a coup d'état in Georgia, support for aggression against Azerbaijan and "full understanding" with Armenia. KavkazPlus. 2025, July. Retrieved September 2, 2025, from https://kavkazplus.com/en/2025/07/usaid-in-the-south-caucasus-preparation-of-a-coup-detat-in-georgia-support-for-aggression-against-azerbaijan-and-full-understanding-with-armenia/*


**The Use of "Soft Power" in USA and Russian South Caucasus Policy**


**Fatima Bahram Gulamirli**
***PhD Candidate, Department of Social Sciences, Baku Slavic University***
***Senior Lecturer, Department of International Relations, Azerbaijan University of Languages (ADU)***
***https://orcid.org/0000-0002-6722-686X***
***fatima.gulamirli@adu.edu.az***


**SUMMARY**


At the modern stage, it is possible to have influence in different regions of the world not only through military superiority, but also through the application of non-military means. In a globalizing world, cultures, ideas, and values are rapidly crossing the borders of states and spreading to all countries. This factor is especially important for actors trying to have a say in the modern world order. Thus, the acceptance and support of each other's policies by states depends largely on the level of "soft power" they apply. In such a situation, great powers competing for spheres of

influence in different regions of the world pay special attention to the development of this area. Developing the country's "soft power" potential is of great importance in order to achieve the support of states without using military force or threatening force. The South Caucasus is a region that occupies an important place in the regional strategy of Russia and the United States. The use of "soft power" elements here can weaken the military emphasis in the regional security environment and strengthen non-military approaches. Russia and the United States have different "soft power" approaches in the South Caucasus, which is due to the history of their experiences with the region. The article examines the main parameters, development dynamics, and impacts of the "soft power" policy that Russia and the United States are trying to implement in the South Caucasus.

**Keywords:** *tools of influence, common cultural heritage, disinformation, exchange programs.*

**Использование «мягкой силы» в политике США и России в отношении Южного Кавказа**

**Фатима Бахрам Гюлямирли**
***Докторант кафедры общественных наук Бакинского Славянского Университета***
***Старший преподаватель кафедры международных отношений Азербайджанского Университета Языков (АДУ)***
***https://orcid.org/0000-0002-6722-686X***
***fatima.gulamirli@adu.edu.az***

**РЕЗЮМЕ**

На современном этапе оказывать влияние в различных регионах мира можно не только посредством военного превосходства, но и посредством применения невоенных средств. В глобализирующемся мире культуры, идеи и ценности стремительно пересекают границы государств и распространяются во всех странах. Этот фактор особенно важен для акторов, стремящихся влиять на современный миропорядок. Таким образом, принятие и поддержка политики друг друга государствами во многом зависит от уровня применяемой ими «мягкой силы». В такой ситуации великие державы, конкурирующие за сферы влияния в различных регионах мира, уделяют особое внимание развитию этой сферы. Развитие потенциала «мягкой силы» страны имеет большое значение для получения поддержки государств без применения военной силы или угрозы её применения. Южный Кавказ – регион, занимающий важное место в региональной стратегии России и США. Использование здесь элементов «мягкой силы» может ослабить военный акцент в сфере региональной безопасности и усилить невоенные подходы. У России и США разные подходы к применению «мягкой силы» на Южном Кавказе, что обусловлено историей их взаимодействия с регионом. В статье рассматриваются основные параметры, динамика развития и последствия политики «мягкой силы», которую Россия и США пытаются реализовать на Южном Кавказе.

**Ключевые слова:** *инструменты влияния, общее культурное наследие, дезинформация, программы обмена.*

*Rəyçi: Fəlsəfə elmləri doktoru,*
*professor Etibar Əli oğlu Nəcəfov*
*Məqalə redaksiyaya daxil olub: 18.01.2026*
*Çapa qəbul olunub: 27.01.2026*

*The date of the admission of the article to the editorial office: 18.01.2026*
*Accepted for publication: 27.01.2026*